**UOT 930.25**
**https://doi.org/10.52094/2221-7584.2025.37.101**

**Azadə Nəzirova Kamil qızı**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti magistrant**
**azadenezirova26@gmail.com**

# OSMANLI ARXİV SƏNƏDLƏRİDƏ QARABAĞIN SİYASİ MƏNZƏRƏSİ

**Xülasə.** Osmanlı arxivlərində Cənubi Qafqazın XVI-XIX əsrlər tarixi ilə əlaqədar arxiv mənbələr zəngindir. Xüsusilə də, Qarabağın tarixi keçmişindən yeni dövrünə qədərki mərhələni tədqiq edəndə, ərazinin bir çox hallarda Osmanlı işğallarında olması və idarəetmə sisteminin təşkilindəki priniplər, Osmanlı sarayı ilə beynəlxalq münasibətləri əks etdirən sənədlər daim diqqət mərkəzində olur.

**Açar sözlər:** Osmanlı, arxiv, Qarabağ, sənəd,t əhrir dəftərləri

XVIII əsrin ortalarından (1747) Əfşarlar imperiyasının süqutunundan sonra Azərbaycan torpaqlarında meydana gələn on səkkiz xanlıqdan biri olan Qarabağ xanlığı ,xüsusilə də İbrahimxəlil xanın dövründə Osmanlı dövləti ilə nisbətən daha sıx əlaqələr yaratmışdı.Osmanlı arxivlərində saxlanılan sənədli materiallardan biri 《Osmanlı sənədlərində Qarabağ》 adlı sənədlər toplusudur.Qarabağ tarixi ilə əlaqədar sənədlər toplusuna 119 sənəd daxil edilmişdi.Ümumiyyətlə,zəngin arxiv sənədləri əsasında hazırlanan bu sənədlər toplusu XVI-XX əsrin əvvəllərundəku tarixini əks etdirir. Belə ki,1590-cı ildən Qarabağ bölgəsinin Osmanlı tərəfindən işğalından (1590-cı il I İstanbul müqaviləsi), Osmanlının Birinci Dünya müharibəsində məğlubiyyətinin nəticəsi olaraq Mudros sülhünə (1918,30 oktyabr) əsasən qoşununu Cənubi Qafqazdan çıxarılmasına qədərki dövrü, hətta Azərbaycan Xalq Cümhiriyyəti dövrünə qədər keçən müddət ərzində Osmanlı dövlətinin bölgə ilə olan əlaqələrini əhatə edir.Osmanlı arxiv sənədlərinin tədqiqində məlum olur ki,Qarabağ-Osmanlı əlaqələrində siyasi-diplomatik sənədlər üstünlük təşkil edir.Bu sənədlər toplusundakı bir sıra arxiv mənbələrini təhlil edəndə məlum olur ki,Osmanlının Cənubi qafqaza yürüş etməsinin başlıca səbəbi bölgəni osmanlı idarəetmə sistemin yaradılmasıdır. Mövzumuzdan da məlumdur ki, Qarabağ Azərbaycana

hücum edən dövlətlər üçün strateji qala rolunu oyanyır.Bunları arxiv mənbələrində istinad edərək qeyd etməliyik:

1. 1587-ci il 31 mart tarixli sənəddə Qarabağın fəthi üçün göndərilən Fərhad Paşanın Ərdəbil və ətraf əraziləri ələ keçirib, qızılbaşların məğlub edilməsi haaqında Dağıstan hakimi Şamxal bəyə məktub göndərmişdi [5, 23].

2. 1590-cı il 4 noyabr tarixli sənəddə əsasən Qarabağ xanlığı və Gəncədə baş verən iqtisadi böhrana əsasən vergilərin əhalinin vəziyyətinə uyğun alınması qərara alınmışdı [5].

XVI əsrdə Səfəvilər dövlətindən məlumdur ki, Qarabağ bəylərbəyliyinin bəhs olunan dövrdə mərkəzi Gəncə şəhəri idi.Buna görə də, Osmanlı mənbələri mərkəz Gəncə şəhərinə yürüş istiqamətləri haqqında məlumatlar göndərirdilər. Dövrün tarixi keçnimini Osmanlı arxivlərinin əsas tədqiqat mərkəzində olan vergi dəftərlərindən də tədqiq etmək mümkündür.Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftərinə əsasən məlumdur ki, Gəncə-Qarabağ bölgəsinin 1725-ci ildə ələ keçirilməsindən sonra vergi yığmaq məqsədilə 1727-ci ildə hazırlanan “Gəncə-Qarabağ” əyalətinin müfəssəl dəftəri"ndə əyalətin kəndlərində nə qədər adamın yaşadığını,onların adı, milli və dini mənsubiyyəti göstərilirdi. Qanunnamə ilə başlayan dəftərdə ərazi-inzibati vahidlər,onlara tabe olan yaşayış məskənləri,əhalinin peşəsi haqqında,onların əkib-berdikləri məhsulların həcmi və.s məsələlər əks olunmuşdu. Əslində Təhrir dəftərləri osmanlı türkcəsi ilə yazıdlığı üçün tərcümələrində problemlər olur,amma ümumilikdə dövrün sosial-iqtisadi mənzərəsini əks etdirən başlıca sənədlərdir [3].

Osmanlı sənədlərində Qarabağın Səfəvi-Osmanlı müharibələrində mövqeyi müxyəlif arxiv sənədləri əsasında təhlil edilmişdi.Belə ki,1724-cü ilin yanvar ayına məxsua sənəddə Sultan III Əhməd və Rusiya çarı Pyotr Alekseyeviçin hakimiyyəti dövründə imzlanaraq III İstanbul adlanan müqaviləyə görə Qarabağ, Naxçıvan,Rəvan,Üçkilsə bölgələri Osmanlı dövlətinə verildiyi təsdiq edilmişdi.Yəni Xəzər vilayətləri Rusiyanın,Cənubi Qafqazın digər torpaqları Osmanlı hakimiyyətinə keçmişdi [1].

Qarabağın XVI-XIX əsrlər tarixini həmçinin Osmanlı dövləti ilə Azərbaycan türk xanlıqları arasındakı münasibətlərə dair arxiv bəlgələrindən də əftralı tədqiq etmək mümkündür. Bildiyimiz kimi,tarixən Qarabağ bəylərbəyliyinin mərkəzi Gəncə şəhəri olmuşdur. Osmanlı yürüşlərində Qarabaöın inzibato mərkəzizinin qonşu xanlıqlarla münasibətlərində başlıca məqsədinin müstəqilliyin qorumaq və birləşdirmə siyadəti olduğunun bariz nümunəsidir. Xanlığın XVIII əsr Osmanlı dövləti ilə münasibətlərin Türkiyə

Başbakanlıq Osmanlı Arxivini Xətti-Humayun sənədlərindən də tədqiq etmə mümkündür.Sənədlərun əsas mahiyyətində Osmanlı dövlətinin başlıca məramının sərhədlərin təhlükəsizliyi olduğu vurğulanmışdır.1783-cü ildə 24 iyul tarixli Georgiyevsk müqaviləsinə əsasən Kartli-Kaxetiya çarlığının Rusiyanın təbəəliyinə keçməsindən sonra Rusiyanın C.Qafqaz xanlıqlarına qarşı təzyiqləri güclənmişdi [2, 17].

1795-ci ilə məxsus Osmanlı Baş Arxiv İdarəsində mühafizə olunan arxiv mənbəsindən aydın olur ki, Ağa Məhəmməd xanın Azərbayacan yürüş etməsinə qarşılıq Qarabağlı İbrahimxəlil xan Osmanlı dövlətinə köməyə ehtiyacı olduğuna dair məktib göndərmişdi [4, 182].

İbrahimxəlil xanın birləşdirmə siyasətinə qarşı çıxan bir sıra xanlıqlar Rusiyanın himayəsinə keçmişdir. Xanın Osmanlı dövlətinə müraciətindən məlum olur, Quba, Şəki, İrəvan xanlıqları Rusiyaya itaət etdiklərinə görə xanlığın müqavilə imzlamağa məcbur olduğunu etiraf etməyinə dair Ərzurum validi Abdullah paşaya farsca məktub göndərilmişdir [19 avqust, 1806].

Sənədlərin bir çoxundan məlum olur,Osmanlı dövlətini xanlıqlara XVIII əsrin II yarısı və XIX əsrin əvvəllərində diplomatik məktublar göndərilsə də,faktiki olaraq yardım etməmişdi. Bunun nəticısində İran və rusiyanın Cənubi Qafqazda işğalçılıq məqsədlərini həyata keçirməsinə şərait yaratmışdır.

Sənədlərin xronoloji çoxluğunu XIX əsr materialları da təşkil edir. Xüsusilə də, Rus-İan (Qacarlar) müharibələri dövründə Qarabağ xanlığı ərazisində də müharibələr baş vermiş, İbrahimxəlil xanın qızı Tutu xanımın düşmənə qarşı Osmanlıdan yardım tələbini əks etdirən ərəbcə yazılan məktubda xanlığın Dağıstan hakimləri ilə razılaşdıqları da qeyd olunmuşdur (sənəd 1813-cü ilə məxsusdur). Gülüstan müqaviləsində artıq İrəvan və Naxvçıvanı istisna olmaq bütün şimal xanlıqları Rusiyanın himayəsinə verildi [4, 99].

## Ədəbiyyat siyahısı:

*Azərbaycan dilində*

1. AMEA Tarix və Etnologiya İnistutunun arxivi, 1. 7164, iş 1, s. 300
2. AMEA Tarix və Etnologiya İnistutunun arxivi, 1. 1796, iş 1, s. 49
3. Azərbaycan tarixi arxiv sənədlərində (XVIII-XX əsr), I cild, Türkiyə Cümhuriyyəti Başbakanlıq Osmanlı Arxiv sənədləri, Bakı Çaşıoğlu, 2010. 508 s.
4. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri, Şuşa, Bakı, 2000, 576 s
5. Osmanlı sənədlərində Qarabağ, Şərq-Qərb, Bakı, 2011.616 s.

*Türk dilində*

6.Osmanlı devleti ilə Azerbaycan hanlıkları arasında münasibetlere dair arşiv belgeleri, Ankara,1993, 488 s.

**Азада Назирова**

## ПОЛИТИЧЕСКАЯ ПАНОРАМА КАРАБАХА В ОСМАНСКИХ АРХИВНЫХ ДОКУМЕНТАХ

**Резюме**: В османских архивах богаты архивные источники, связанные с историей Южного Кавказа с 16 по 19 века. В частности, при изучении этапа исторического прошлого Карабаха до новой эпохи выясняется тот факт, что территория была оккупирована османами неоднократно, и принципами организации системы управления, документами, отражающими международные связи с османским дворцом, всегда становятся в центре внимания.

**Ключевые слова**: Османская империя, архив, Карабах, документ, налоговые записки.

**Azada Nazirova**

## THE POLITICAL PANORAMA OF KARABAKH IN OTTOMAN ARCHIVE DOCUMENTS

**Summary**: Ottoman archives have rich archival sources related to the history of the South Caucasus from the 16th to the 19th centuries. In particular, while studying the stage from the historical past of Karabakh to the new era, there is revealed the fact that the Ottomans repeatedly occupied the territory. The principles of  organization of the management system and the documents reflecting the international relations with the Ottoman palace are always found. become the center of attention.

**Key words**: Ottoman Empire, archive, Karabakh, document, tax registers.